https://doi.org/10.59849/3006-1342.2024.2.78
UOT 39

*N.R.Coşkunsu*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: nigar_v@mail.ru*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ORDUBAD ƏHALİSİNİN MƏİŞƏT VƏ MƏDƏNİYYƏTİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

*Qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə malik Ordubad öz flora və faunası, şəhər məişətinin rəngarəngliyi, zəngin mətbəxi, maddi-mənəvi mədəniyyəti, eləcə də görkəmli ziyalı təbəqəsi ilə məşhurdur. Uzaq və Orta Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək Yolunun Ordubaddan keçməsi onun iqtisadi inkişafına böyük təsir göstərmiş və bu bölgənin qərb-şərq məkanında tanınmasında mühüm rol oynamışdır.*

*"Naxçıvanın Qobustanı" sayılan məşhur Gəmiqaya abidəsi, Xaraba-Gilan, Plovdağ, Muncuqlu təpə və digər arxeoloji abidələr tariximizin qədim təbəqələrinə nüfuz etmək baxımından qiymətli mənbədir. Bundan əlavə, Ordubad memarlıq quruluşuna, dini abidələrinə, əhalisinin ənənəvi həyat tərzinə və mədəniyyətinə görə açıq səma altında etnoqrafik muzeydir. Təqdim olunan məqalədə mənbələr və çöl-etnoqrafik materialların köməyi ilə XIX əsr və XX əsrin əvvəllərində ordubadlıların məişəti ilə bağlı bu və digər məsələlər araşdırılır.*

*Açar sözlər:* Ordubad, Qapıcıq, Biləv, Cənnəb, bağçılıq

## *Giriş*

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 21 fevral 2024-cü il tarixində "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında sərəncam imzalamışdır. Bildiyimiz kimi, Azərbaycanın tarixi şəhərlərindən olan Ordubad zəngin mədəni irsə malikdir. Məqalədə XIX-XX əsrin əvvəllərində Ordubadın tarixi-etnoloji tədqiqatı əksini tapır. Rusdilli mənbələrlə yanaşı, 2023-2024-cü illərdə AMEA Tarix və Etnologiya İnstitutundan Ordubad rayonuna təşkil edilən etnoqrafik səfərin materiallarından da istifadə olunur. Tədqiqatda mənbələr və tarixşünaslıqdakı faktların, etnoqrafik sorğular və müşahidələrin nəticələri üzərində təhlillər aparılır, elmi dövriyyəyə yeni materiallar gətirilir. Ordubadın tarixi məhəllələrinin, xalq yaşayış evlərinin və s. etnoqrafik təsviri verilir, əhalinin təsərrüfat məşquliyyəti (bağçılıq, bostançılıq, maldarlıq, sənətkarlıq, ticarət və s.) və digər məsələlər tarixi-etnoloji aspektdən öyrənilir.

## *Əsas hissə*

***Coğrafi şərait***. Ordubad rayonu Naxçıvan MR-nın cənub-şərq hissəsində yerləşib, şimaldan və şərqdən Kiçik Qafqazın Zəngəzur silsiləsi, cənubdan isə Araz çayı boyunca İranla həmsərhəddir. Rayon ərazisi relyefinə görə üç yerə bölünür: düzənlik, dağətəyi və ya orta dağlıq və yüksək dağlıq. Ən hündür zirvəsi Zəngəzur silsiləsindəki Qapıcıq dağıdır (3.904 m). Araz çayı boyunca uzanan və ümumi sahəsi 10 min hektar olan Yaycı, Dəstə və Ordubad düzənlikləri yerləşir [1, s. 29].

Ordubad zəngin flora və faunası, təsərrüfat həyatının müxtəlifliyi, zəngin mətbəxi, maddi və mənəvi mədəniyyəti, həmçinin görkəmli ziyalıları ilə məşhurdur. Şərq ölkələrini Qərblə birləşdirən Böyük İpək Yolunun Ordubaddan keçməsi, XVI əsrin ikinci yarısından buradan Venesiya, Marsel, Amsterdam və başqa Avropa şəhərlərinə ipək ixrac olunması,

onun şöhrətlənməsi ilə yanaşı, iqtisadi inkişafına da böyük təsir göstərmişdir. Başqa sözlə desək, tranzit bölgə funksiyası Ordubadın inkişafında, habelə Şərq və Qərb ölkələrində tanınmasında mühüm rol oynamışdır.

Ordubad rayonunun təbii-iqlim şəraiti hələ qədim zamanlarda yerli əhalinin təsərrüfat fəaliyyətinin istiqamətlərini, maddi mədəniyyətinin xüsusiyyətlərini müəyyənləşdirmişdir. Bu amil yaşayış məskənlərinin salınmasına, inşaat mədəniyyətinə də təsir göstərmişdir.

***"Ordubad" toponimi barədə***. Ordubad toponimi qədim türk dillərində "xan düşərgəsi", "iqamətgah", "qərargah" və s. mənalarda işlədilən "ordu" və "abad" (yaşayış məntəqəsi, kənd) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bəzi müəlliflərə görə isə vaxtilə "ordu" sözü "xaqanın yaşadığı yer, mərkəz" mənasında işlənmişdir [3, s. 202].

***Arxeoloji tədqiqatlar***. Qədim tarixə malik Ordubad ərazisində ilk yaşayış məskəninin V-VI əsrlərə aid olduğu ehtimal edilir. Belə ki, arxeoloji qazıntılar zamanı müasir şəhər ərazisində orta əsrlərə aid geniş bir ərazidə yaşayış məskəninin qalıqları aşkar edilmişdir [4, s.18-19]. Məşhur Gəmiqaya abidəsi isə "Naxçıvanın Qobustanı" hesab edilir. Buradakı iki minə yaxın qayaüstü təsvirlər xalqımızın, bu bölgədə ilk insanların məskunlaşmasının ulu tarixini əks etdirməklə bərabər, zəngin mədəniyyətimizin qədim izləri kimi də böyük əhəmiyyətə malikdir [5, s. 7].

Rayon ərazisindəki Xaraba-Gilan, Plovdağ, Muncuqlu-təpə, Xalı-keşan, Mərdangölü, Dəlmə, Sumbatan, Rəsul dərəsi, Dəmyələr, İlikli qaya abidələri və digər arxeoloji abidələr isə təkcə Naxçıvanın deyil, eyni zamanda, Urmiya ətrafı bölgənin də tarixinin və mədəniyyətinin xronoloji ardıcıllıqla öyrənilməsinə imkan verir. Tarixçi F.Məmmədova yazılı mənbələrə əsaslanaraq Ordubad şəhərinin (mənbədə Ordubad kəndi kimi göstərilir) adının ilk dəfə eramızın I-II əsrlərinə aid hadisələrlə əlaqədar çəkildiyini yazır [6, s. 223]. 1902-ci ildə şəhərdəki "Came" məscidinin ətrafında aparılan bərpa işləri zamanı tapılmış kərpicin üzərində aşkar edilən hicri tarixi ilə "111-ci il" (miladi 730/731) yazısı isə sübut edir ki, hələ islam dininin yeni yayıldığı dövrdə Ordubad inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur. Şəhər qəbiristanlığından eramızın IX əsrinə aid qəbirüstü plitə hicri tarixi ilə 227-ci ilə (miladi 842-ci il) aiddir [7, s. 142].

***İnzibati quruluşu***. XVII əsrdə Ordubad Azərbaycanın 9 ən mühüm şəhərindən biri olmuşdur [8, s. 122]. XVII-XVIII əsrin əvvəllərində şəhər Osmanlı dövlətinin tabeliyində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri olan Azadciranın tərkibinə daxil idi [9, s.15-18]. Türkmənçay müqaviləsi ilə Naxçıvan xanlığının tərkib hissəsi kimi Ordubad da Rusiyaya birləşdirilmişdir. Bundan sonra Rusiya tərəfindən yaradılmış qondarma "Erməni vilayəti"nin tərkibinə daxil edilərək 5 mahala (rayon) bölünmüşdür: Ordubad, Əylis, Dəstə, Biləv, Cənnəb. Mahallara yerli bəylərin arasından seçilən naiblər başçılıq edirdi. 1849-cu il iyulun 9-da burada yeni inzibati ərazi vahidi - Ordubad qəzası yaradılmış və İrəvan quberniyasının tərkibinə daxil edilmişdir [2, s. 10]. XIX əsrin 40-cı illərində yaradılan bu müstəmləkə idarə sistemi XX əsrin əvvəllərinə qədər qismən dəyişikliklərlə qorunub saxlanılmışdır. 1921-ci il martın 10-da Moskvada Rusiya ilə Türkiyə arasında imzalanan müqaviləyə əsasən Naxçıvan ərazisi Azərbaycanın ayrılmaz hissəsi kimi tanınmışdır. 1924-cü il fevralın 9-da isə Azərbaycan SSR-nin tərkibində Naxçıvan Muxtar Respublikası, 1930-cu ildə isə vilayətin tərkibində Ordubad inzibati rayonu yaradılmışdır. Rayon 1963-cü ildə ləğv edilmiş və ərazisi Culfa rayonuna birləşdirilmişdir. Lakin 1965-ci ildə yenidən müstəqil rayon statusu alan Ordubad hazırda 1 şəhər, 3 qəsəbə və 43 kənddən ibarətdir [2, s. 10].

***Əhalisi***. XIX əsr mənbələrində Ordubad bölgəsi, buranın əhalisi, təsərrüfatı, maddi və mənəvi mədəniyyəti ilə bağlı müfəssəl məlumatlar mövcuddur. Məsələn, "Qafqaz təqvimi"nin materiallarına görə, 1851-ci ildə Ordubad şəhər əhalisi 4040 nəfər olmuşdur [10, s. 76-88]. 1873-cü ildə isə şəhərdə 840 ev və 3489 nəfər (2063 kişi və 1426 qadın) əhali qeydə alınmışdır [11].

1886-cı il siyahıyaalınmasından görünür ki, şəhərdə 854 tüstü mövcud olmuş və 4199 nəfər (2331 kişi və 1868 qadın) yaşamışdır. Bunlardan “tatarlar” (azərbaycanlılar) - 3787 nəfər (2100 kişi və 1687 qadın, cəmi 769 nəfər siqaret çəkir) təşkil etmişdir. Onlar şiə müsəlman olmuşdur. Sosial mənsubiyyətə görə isə Ordubad əhalisinin 4012 nəfəri kəndli (2233 kişi və 1779 qadın), 110 nəfəri bəy (59 kişi və 51 qadın), 37 nəfəri tacir idi [12].

Brokkauz və Yefronun ensiklopedik lüğətində (1897) yazılır ki, Ordubadda “təqribən 4½ min və əsasən Aderbeidjandan (Azərbaycandan) olan müsəlman tatarlar” yaşayırdılar [13, s. 123]. 1897-ci il siyahıyaalınmasının nəticələrinə görə Ordubad əhalisi 4611 nəfər (2458 kişi və 2153 qadın), o cümlədən 147 xarici ölkə vətəndaşı və müvəqqəti yaşayan 16 nəfərdən ibarət olmuşdur [14, s. 1].

1904-cü ilin “Qafqaz təqvimi”nə görə, Ordubad şəhərində 4929 nəfər əhalinin yaşadığı bildirilir [15, s.3]. 1908-ci ildə isə bu rəqəm 5227 nəfər təşkil etmişdir [16, s. 341]. 1911-ci ildə əhali sayı 5445 nəfər, 1915-ci ildə isə müvafiq olaraq 5472 nəfər təşkil etməklə, əsasən müsəlmanlardan ibarət olmuşdur [17, s. 192; 18, s. 169].

***Yaşayış evləri***. Ordubad dar və bir qədər dolanbac küçələrdən, fasadlı həyət evlərindən ibarət tipik Şərq şəhəridir. Çinar ağacları Ordubad məhəllələrinin özünəməxsusluğunu göstərir. XIX əsrin 30-cu illərində Ordubad şəhərində 615 ev, 6 karvansara, 170 dükan, 1 bazar və 2 hamam mövcud idi. Şəhər 5 məhəlləyə - Ambaras, Kurdətal, Sərşəhər, Mingis və Üçtürləngə məhəllələrinə bölünürdü [19, s. 355]. Hazırda sonradan formalaşan kiçik məhəllələr də mövcuddur.

XIX əsrin ortalarına doğru Ordubadda artıq 874 ev, 2 karvansara, 308 dükan, 470 meyvə və üzüm bağı, 63 məscid, 1 kilsə, 7 meydan, 5 körpü, hamam və 25 küçə vardı [9, s. 33]. 1854-cü ildə isə 828 ev, 3 karvansara, 63 məscid, 5 körpü mövcud olmuş, əhali isə 5302 nəfərə çatmışdı [19, s. 359].

Yaşayış evlərinin tipi və plan-quruluşu ərazinin təbii-coğrafi şəraiti, əhalinin maddi rifahı və digər həlledici amillərlə sıx bağlıdır. 2023-2024-cü illərdə Ordubad rayonunda apardığımız çöl-etnoqrafik tədqiqatlarından məlum oldu ki, həm şəhərin özündə, həm də kəndlərində birotaqlı evlər çoxluq təşkil edirdi. Yaşayış sahəsinin altında və yaxud birmərtəbəli evlərin “üzümlük” adlanan ayrıca otağında tədarük qidaları və avadanlıqlar saxlanırdı. Birmərtəbəli evlər əhalinin ən kasıb təbəqəsi üçün xarakterik olsa da, şəhərdəki ikimərtəbələr şəhər zadəganlarına məxsus idi. XIX əsrdə yaşamış bəy və tacirlərə məxsus belə evlərin (Ərbabın evi, Mirzə Abbasın evi, Mirzə Bağır ağanın evi, Məşədi Əyyub bəyin evi, Bəhlul ağanın evi və s.) girişi səkkizguşəli dəhlizdən ibarətdir. Şəhərdə torpaq sahəsinin azlığı səbəbindən binaların həddən artıq sıxlığı müşahidə olunur. Bu amil yaşayış sahələrinin qeyri-müntəzəm yerləşməsini şərtləndirmişdir.

Ordubad öz tarixi-memarlıq quruluşu etibarilə zəngin və maraqlıdır. Bütün evlər çiy, bəziləri isə bişmiş kərpicdən və bir qayda olaraq, ön fasadı həyətə doğru tikilirdi. Həyət tərəfdən binanın qarşısında, sahənin perimetri boyunca uzanan asfaltlanmış cığır keçirdi.

Keçmişdə ordubadlıların içməli və məişətdə istifadə üçün suya olan tələbatı kəhrizlər vasitəsilə ödənirdi. Məhəllə sakinlərinin ümumi işlətdiyi kəhrizlərlə yanaşı, bəzi həyətlərdə də “çeşmə” adlandırılan su mənbələri vardı. Onlar yer səthindən təx. 8-10 m dərinlikdə olurdu. Hazırda da qorunub saxlanan belə çeşmələrə giriş tavanı tağlı və ya oval düzəldilən pilləli tuneldən həyata keçir. Sıx meyvə bağları ilə əhatələnən həyət, çeşmədəki axar sulu, daş döşənmiş hovuz və kərpiç divarlar Ordubadın ənənəvi inşaat mədəniyyəti üçün xarakterik cəhətlərdəndir.

Ordubad evlərinin qapıları əsasən cəviz ağacından hazırlanmaqla dözümlülüyü ilə seçilir. Qapılarda qadınlar üçün zəncilbab, kişilər üçünsə taqqılbab olmaqla iki tip zəng quraşdırılırdı. Məlumatçıların sözlərinə görə, zəncilbab və taqqılbabın səsinə görə, gələn

qonağın qadın və ya kişi olduğu müəyyənləşdirilirdi. Şəhərin ənənəvi inşaat mədəniyyəti hazırda da qorunmaqdadır.

***Təsərrüfat məişəti***. Ordubadın əsas təsərrüfat istiqaməti bağçılıq idi. Bu barədə mənbələrdə xeyli məlumat var. Səfəvi tarixçısı İsgəndər bəy Münşi (1560-1634) Ordubadın meyvə bağları ilə əhatələnmiş iri şəhər olduğunu qeyd edir.

XVII əsr müəllifi Məhəmməd Yəzdi Ordubaddakı inkişafdan danışarkən çoxsaylı yerli bağlar haqqında məlumat verir [22, s.148].

Fransız mənşəli rus tədqiqatçısı İ.İ.Şopen (1798-1870) Ordubad haqqında yazır: "Dağlarla əhatə olunmuş Ordubad al-əlvandır, sağlam iqlimə malikdir, şəhər sudan boldur. Burada çaydan başqa, bütün bağları və evləri su ilə əsasən təmin edən 70-ə qədər bulaq (kəhriz – N.V) var... Ordubadı, mübaliğəsiz, bütün Qafqazın ən şairanə, ən dilbər guşələrindən biri adlandırmaq olar" [3, s. 201-204].

Məşhur Azərbaycan səyyahı və coğrafiyaşünası Zeynalabdin Şirvani də Ordubadda çoxlu bağların, gözəl meyvələrin olduğunu qeyd edir [23, s. 21]. Bəzi tədqiqatlarda hətta Ordubadın kənd təsərrüfatının əsasən bağçılıqdan ibarət olduğu xəbər verilir [24, s. 61].

Ordubad əhalisinin təsərrüfat həyatında əkinçilik və müəyyən qədər maldarlıq mühüm yer tutmuşdur. Təbii-coğrafi şərtlər istehlak xarakteri daşıyan bu təsərrüfat sahələrinin inkişaf etdirilməsinə imkan verirdi. Lakin texniki təchizatın zəifliyi və əkinçilik (taxılçılıq) mədəniyyətinin nisbətən aşağı səviyyəsi son nəticədə sözügedən sahələrdə yüksək və sabit taxıl məhsulu əldə etməyə imkan vermirdi. Məhz buna görə də 1869-cu ildə Ordubada taxıl (buğda) üçün ayrılmış əkin sahələrinin cəmi 50 hektarı (5,45 hektar) istifadə edilmişdi. Taxılçılıq baha başa gəldiyi üçün rentabelsiz idi. Buna görə də Ordubad ticarətində çəmən idxalı (dernya) mühüm yer tuturdu [20, s. 89].

Bostançılıq Ordubadın iqtisadiyyatında ciddi rol oynamırdı. Onu əsasən şəxsi istehlak üçün becərir, yalnız kiçik bir hissəsi yerli bazarlara daxil olurdu. Becərilən müxtəlif növ bostan bitkiləri — qarpız, xiyar, soğan, lobya, bibər, göyərti şəhərliləri ilboyu təmin edirdi.

Ordubad bölgəsində pambıqçılıq [21, s. 42], tütünçülük, həmçinin arıçılıq və gülçülük kimi təsərrüfat sahələri də mövcud olmuşdur. Lakin du diyar bağçılıq və meyvəçilik sahələri üzrə daha çox şöhrət qazanmışdı. Təsadüfi deyil ki, Ordubad bağçılığı nəinki Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda məşhur idi. Yerli əhali həmin bağlar haqqında çoxlu mahnı və şeirlər yazmış, buranı "yerüstü cənnət" adlandırmışlar [19, s. 251].

XIX əsrin 30-cu illərinə aid məlumatda Ordubad bölgəsində 200 xalvar əkin sahəsində meyvə bağları salındığı, onun da 30 xalvarının məhz Ordubad şəhəri və onun ətrafında yerləşdiyi bildirilir [25, s.195, 197-198]. Daha dəqiq desək, bağların böyük bir qismi Gilançay, Üstüpüçay, Dırnısçay, Əylisçay və Ordubadçay ərazilərində yerləşən kəndlərdə (Kələki, Biləv, Gənzə, Danagird və b.) və Ordubad şəhərində idi [26, s. 14].

Ordubad bağbanları yeni meyvə sortlarının yetişdirilməsi və mövcud növlərinin yaxşılaşdırılması sahəsində böyük təcrübəyə malik idilər. Yəni onlar vəhşi meyvə sortları əsasında qiymətli, məhsuldar və daha dadlı sortlar yaratmağı mükəmməl bilirdilər. Təkcə onu demək kifayətdir ki, Ordubadda 60-a qədər alma növü mövcud olmuşdur ki, onlardan da *müşki, rəcəbi, yay alması, cənnət alması, sultanlar, girdə şirin, dolma alması, daş alma, nefli alma, cefer alması, güləbidən* və s. qeyd etmək olar [2, s. 14].

Armudun isə Ordubadda 20-yə qədər çeşidi, o cümlədən *əndiryanı, xoy armudu, bildirçin budu, qış armudu, lətənzir, peyqəmbəri, hindi-hind dili, Krım armudu, abbasi, nar armudu, daş armud* və s. növləri becərilmişdir.

Şaftalı əsasən Ordubad şəhərinin özündə, Vənənd və Xanağa kəndlərində yetişdirilirdi. Şaftalı peyvənd üsulu ilə deyil, meyvə toxumları ilə çoxaldılırdı. Buna baxmayaraq, yerli bağbanlar çoxəsrlik təcrübəyə arxalanaraq yalnız Ordubadda və onun ətraf ərazilərində bitən

sortlar da yetişdirmişlər. Məsələn, *terelli, şerelli, salami* kimi şaftalı sortları məhz Ordubad bağbanlarının əməyinin bəhrəsidir və onlara Azərbaycanın başqa bölgələrində rast gəlinmir.

Gilas növlərindən *sarı, qara, ağ gilas, Əylis gilası, Nüsnüs gilası*, gavalılardan *albuxara, naziralı, tumbul, sarı alı, bəylər alı* və s., alça sortlarından *yay mələsi (yayın əvvəli), yaz mələsi, rəcəbi, təbərzə,* badam sortlarından *qız badamı, tirə badam,* qoz sortlarından *kağızı, çuvaldız, qır, girdə qıyaxatı və s.* adını çəkmək olar. Ordubadda kiçik fındıq plantasiyaları və nar bağları da mövcud olmuşdur.

Ordubadlıların əsas və qədim məşğuliyyət sahələrindən biri də üzümçülük idi. Ordubad üçün xarakterik olan əsas üzüm sortları bunlar olmuşdur: *ordubadi, arazbarı, xanəqırna;* bəzilərində - antropomorfik adlar: *əskəri, xəlili, hüseyni, nəbi* və ya zoomorf adlar: *pişik, keçi əmcəyi (keçi yelini), inək əmcəyi (inək yelini), tulagözü* və s. [2, s. 18].

Artıq qeyd etdiyimiz kimi, keyfiyyətli və geniş otlaqların olmaması bu diyarda maldarlığın geniş inkişafına imkan vermirdi. Mal-qara yalnız fərdi təsərrüfatlarda məhdud sayda saxlanırdı. Süd və süd məhsulları bir qayda olaraq şəxsi ehtiyacları ödəməyə kifayət edirdi. Məhz buna görə də 1869-cu ildə Ordubad təsərrüfatlarında cəmi 1615 baş qoyun, 232 baş iribuynuzlu mal-qara, 27 baş at, 40 baş ulaq saxlanırdı [27, s. 39]. Ordubadlılar yükdaşıma işləri üçün adətən yaxın kəndlərdən mal-qara icarəyə götürərdilər.

Qoyunçuluq maldarlığın digər sahələri ilə müqayisədə nisbətən inkişaf etmişdi. Bütün heyvanların ümumi sayının hardasa 62,4%-i məhz qoyunlardan ibarət idi. Biləv (39,9%) və Dəstə (23,8%) mahalları mal-qaranın ümumi sayına görə öndə gedirdilər. Onların ardıca Ordubad şəhəri daxil olmaqla eyni adlı mahal (18,5%), Cənnəb (9,5%) və Əylis (8,3%) mahalları gəlirdi [28, s.794-795].

Ordubad həm də sənətkarlıq diyarıdır. Orta əsrlərdə buradan Venesiyaya, Marselə, Amsterdama və s. Avropa şəhərlərinə ipək ixrac olunması haqqında məlumatlar mövcuddur [3, s.202-204]. İpəkçilik Ordubadın özündə, eləcə də Yuxarı Əylis, Yuxarı Aza, Gənzə, Vənənd, Cənnəb kəndlərində geniş yayılmışdı. Xanlıqlar dövrünün sonunda Ordubadda 100 minə qədər tut ağacı olmuşdur ki, onun da 10 mini Ordubad şəhərində əkilmişdir. XIX əsrin birinci rübündə bütün yerli istehsal sahələri əl əməyi sayəsində fəaliyyət göstərən iki ipəksarıma müəssisəsində cəmlənmişdir [25, s. 198].

İpəkçilik təsərrüfatın gəlirli sahəsi olduğuna görə, hər tut ağacından ildə 1 man. 20 qəp. vergi alınırdı [25, s. 195]. 1850-ci ildə Ordubad dairəsinin Aşağı Əylis, Dəstə, Biləv, Cənnəb kəndlərində və Ordubad şəhərində 70 pud 20 girvənkə (1 girvənkə = 409,5 q) xam ipək istehsal olunmuşdu [29, s. 186]. XIX əsrin 60-cı illərində ipəkqurdu xəstəliyi ilə əlaqədar Azərbaycanın əsas ipəkçilik mərkəzlərindən olan Nuxa və Şuşada ipəksarıma fabrikləri fəaliyyətini dayandırmış, Ordubadda isə iki belə fabrik açılmışdı. Onlardan biri Aşağı Əylis kəndində, digəri isə Ordubadın özündə isə başlamışdı. Əylis fabrikində XIX əsrin 60-cı illərinin sonlarında Cənubi Qafqazda ilk dəfə olaraq 10 mexaniki ipəkəyirmə dəzgahı qurulmuşdu. 1870-ci ildə əsasən, Rəşt və Xorasan barama qurdları hesabına Naxçıvan qəzası, Ordubad və Şərur əyalətlərində 7075 pud barama əldə edilmişdi ki, bu da 1866-cı ildəkindən 4919 pud çox idi [21, s. 42]. 1883-cü ildə ipək sarıyan maşınların sayı 15-ə çatmışdı ki, onlar da ildə təxminən 200 pud xam ipək istehsal edirdi [19, s. 355].

İpəkçilikdən başqa, Ordubadda dabbaqlıq da inkişaf etmişdi. XIX əsrin ortalarında burada dəri məmulatlı istehsalı edən 12 “zavod” fəaliyyət göstərirdi [30, s. 352]. Dabbaqxanalar Ordubadçayın üzərində - şəhərin mərkəzində tikilmişdi. Onlardan ikisi nisbətən böyük idi və kapitalist istehsalına meyl edirdi. Bu müəssisələrdə 1832-ci ildə 23 nəfər, 1854-cü ildə 21, 1859-cu ildə 24, 1864-cü ildə 28, 1865-ci ildə 24 nəfər işləyirdi [31, s. 232]. Göründüyü kimi, dabbaqların sayı uzun illər ərzində sabit qalsa da, əhalinin tələbatını tam ödəmişdir [28, s. 857].

Mənbələrdə XIX-XX əsrin əvvəllərində Ordubadda fəaliyyət göstərən metalişləmə, toxuculuq, həllaclıq, boyaqçılıq və b. sənət sahələri haqqında da məlumat vardır. İ.Şopenin yazdığına görə, burada sənətkarların əksəriyyətini toxucular təşkil edirdilər. Hər bir ailənin öz dəzgahı vardı ki, bu dəzgahlarda da qadınlar iplərdən bez və pambıq parça toxuyurdular [28, s. 851]. Burada əsasən xovlu xalçalar, namazlıqlar, yun xovsuz zililər, duz torbaları, xurcunlar, məfrəş, şəddə və kilim kimi xalça növləri toxunurdu. Unus kəndinin sakinləri satış üçün əsasən yundan palaz və çuval toxuyurdular. Bundan əlavə, qəzanın bir çox kəndlərində xeyli sayda bez toxucusu olduğu da bildirilir [32, s. 603-604; 33, s. 21].

Toxuculuğun inkişafı boyaqçılığın da genişlənməsinə şərait yaradırdı. Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində dörd boyaqxana (3-ü Naxçıvanda, 1-i Ordubadda) var idi [25, s. 19]. Xanlıq dövründə heç kim icarədara müəyyən olunmuş vergini ödəmədən hər hansı məhsulu boyamaq hüququna malik deyildi. Müəyyən edilmiş qaydalara görə, nəinki şəhərlərdəki müstəqil boyaqxanalarda, həmçinin boyamanın ev şəraitində aparıldığı kənd yerlərində də uzunluğu 10 arşın olan pambıq parçanı boyamaq üçün icarədara 32 qəpik, ipək və yun ipləri boyamaq üçün 20 qəpik məbləğində pul ödənilirdi [34, s.103].

Ordubadın daxili və xarici ticarətində mövsümi və quru meyvələr, ipək və ipək məmulatı mühüm rol oynayırdı. Şübhəsiz ki, nəqliyyat vasitələrinin məhdudluğu, şimala və şərqə doğru uzanan çətin dağ silsilələri və digər amillər ticarətin inkişafını ləngidirdi. Yalnız XIX əsrin sonlarında İrəvan-Culfa dəmiryolunun çəkilişi ilə əlaqədar bu çətinliklər müəyyən qədər aradan qaldırıldı.

Ordubad ticarətində aparıcı mövqe yerli tacirlərə məxsus idi. XIX əsrin 30-cu illərində burada 35 tacir vardı ki, onların 10-u topdansatış əməliyyatları ilə məşğul olurdu [25, s. 201-202]. Şəhər bazarında fəaliyyət göstərən 85 dükanın 30-u ipək və pambıq məmulatı, Rusiyadan gətirilmiş çini, qənd, qəhvə, çay, eləcə də yerli sənətkarların məhsulları ilə ticarət edirdi. Ərzaq məhsullarının, təzə və quru meyvələrin satışı üçün 20 mağaza ayrılmışdı. Beş dükan müxtəlif əmtəə ticarəti ilə məşğul olur, qalan 30 dükan isə istehsal olunan məhsulların satışa çıxarıldığı emalatxanalardan ibarət idi [25, s. 202].

XIX əsrin 60-cı illərinin sonlarında Ordubad bazarında illik dövriyyəsi 52 min rublu ötmüş 308 dükan fəaliyyət göstərirdi. Dükanlardan 32-si sənətkarlıq, 29-u xırda-əmtəə, 28-i kənd təsərrüfatı məhsulları təklif edirdi [35, s. 89]. Həm şəhərin özünün, həm də qəza ticarəti Ordubadın mərkəzində yerləşən bazarda cəmləşirdi. Yaxınlıqdakı kəndlərin sakinləri kənd təsərrüfatı və sənətkarlıq (ev sənəti) məhsullarını burada satır, əvəzində lazımi məhsulları alırdılar.

Ordubad bazarı Şərq şəhərlərinə xas planı əks etdirən bir neçə kvadrat hissədən ibarət idi [4, s. 89]. Burada əsas dükanlar qəssablar, baqqallar, çörək tacirləri, həmçinin kiçik iaşə obyektləri - kababxana, pitixana, aşxana və çayxanalardan ibarət idi. Yerli və xaricdən gətirilən sənətkarlıq və sənaye mallarının satıldığı cərgələr də vardı. Bazarın girişində yerləşən əsas ticarət sahəsi "Arasa meydanı" adlanırdı. Burada, bir qayda olaraq, müxtəlif malların ticarəti ilə məşğul olan tacirlərin idarələri yerləşirdi.

Çəkisi 10-12 puda qədər olan tərəzilərdə kənd təsərrüfatı məhsulları: buğda, yulaf, təzə və qurudulmuş meyvələr, tərəvəz və bostan məhsulları satılırdı. "Kömür meydanı" adlanan ikinci bazar meydanında kömür, odun, ot və s. satılırdı. Bazarın aşağı hissəsində "Aşağı Ambaras" meydanı yerləşirdi. Meydanda məscid, hamam və çoxlu emalatxanalar fəaliyyət göstərirdi.

XIX əsrin əvvəllərində şəhərdə əsasən altı karvansara olduğu halda, həmin əsrin sonunda onların sayı ikiyə enmişdi [24, s. 52]. Rusiya ilə İran arasında əsas ticarət magistralının şəhərdən keçməsi onun xarici ticarət əməliyyatlarının artmasına kömək edirdi. Bu sahədə Ordubad gömrük məntəqəsi və yaxınlıqdakı Culfa dəmiryolu stansiyasının da mühüm rolu var idi.

XIX əsrin başlanğıcında Naxçıvanda və Ordubadda daxili ticarətin illik dövriyyəsinin 160.000 manata çatması burada karvan yollarının kifayət qədər işlək olduğunu göstərirdi. Ordubaddan Karçevan kəndi vasitəsilə Mehriyə, Qarabağa da yol gedirdi [28, s. 718-721]. Yollar üzərində körpülər, çaylarda keçidlər vardı.

1908-ci ildə İrandan Ordubada 269 karvan və 880 sərnişin buraxılmışdı. Ordubaddan İrana isə 230 karvan və 674 sərnişin keçmişdi. Ə.Fərəcov haqlı olaraq göstərir ki, bu rəsmi statistika həqiqəti tam əks etdirmir, ona görə ki, gömrük rüsumu qoyulan malların böyük hissəsi sərhəddən qaçaq yollarla keçirilirdi [4, s. 61].

*Nəticə*

Göründüyü kimi, Ordubad əhalisinin məişət və mədəniyyəti ümumazərbaycan xarakteri daşımaqla yanaşı, bır sıra özünəməxsusluqları ilə də seçilmişdir. Təbii-coğrafi şərait və iqtisadi resursların müxtəlifliyi, Böyük İpək Yolunun üzərində yerləşməsi və s. amillər Ordubadda bu spesifikliyi və zənginliyi şərtləndirən əsas amillər idi. Ordubadın tarixi-etnoloji irsinin tədqiqi müasir dövrdə şəhərin turizm potensialını daha da artıracaqdır.

ƏDƏBİYYAT


1. Физическая география Азербайджанской ССР. Баку, 1959.
2. Пашаев А. Город Ордубад в XIX - начале XX вв. (историко – этнографическое исследование). Баку: Элм, 1998.
3. Naxçıvan Ensiklopediyası. 2 cilddə, II c., Naxçıvan, 2005.
4. Фараджев А.С. Ордубад (историко-экономический очерк). Баку, 1970..
5. Baxşəliyev V., Seyidov A., Qədirzadə Q., İbrahimli B. Qədim Ordubad. Naxçıvan, “Əcəmi”Nəşriyyat-Poliqrafiya Birliyi, 2014.
6. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании. Баку, 1986.
7. Известия Азербайджанского комитета охраны памятников старины, искусства и природы. Баку, 1925-1929. Вып. 4, тетр. 2. 1929.
8. Гейдаров М. Х. Города и городское ремеслоАзербайджана XIII - XVII вв., Баку, 1982.
9. Ваидова Х. История города Ордубад в XIX - начале XX вв. Баку, Нурлан, 2007
10. Кавказский Календарь на 1852 г. Тифлис, 1851.
11. Сборник сведений о Кавказе. Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879. Т. 5.
12. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893.
13. Энциклопедический словарь Брокгауза и Ефрона: Том XXII (43), СПб, 1897.
14. Первая всеобщая перепись населения Российской империи, 1897 г. Т. LXXI. Эриванская губерния. 1905.
15. Кавказский календарь на 1904 год. Тифлис, 1903.
16. Кавказский календарь на 1910 год. Часть 1. Тифлис, 1909.
17. Кавказский календарь на 1912 год. Тифлис, 1911.
18. Кавказский календарь на 1915 год. Тифлис, 1914.
19. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по высочайшему соизволению. Санкт-Петербург, тип. Деп. внеш. торг., 1836,ч. 4,1836
20. Кавказский календарь на 1866 г. Отдел III. Тифлис, 1865.
21. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrinəvvəllərində. Bakı: Elm, 2008.

22. Онуллахи С. М. Новый источник по истории Азербайджана//ДАН Азерб. ССР, 1975, т. XXXI, №4.
23. Керемов Н. Сорок лет путешествий. Баку, 1977.
24. Воронов Н. И. Город Ордубад в промышленном отношении. СССК, Тифлис, 1869, т. 1.
25. Статистическое описание Нахичеванской провинции составленное В.Г. и напечатанное по Высочайшему соизволению. СПб, 1833.
26. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского Края.Том IV, часть 1-2. Тифлис: 1888.
27. Обзор Эриванской губернии за 1914 г. Эривань, 1915.
28. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПБ., 1852.
29. Сборник сведений о Кавказе. т.II, Тифлис, 1872.
30. Хатисов К. Кустарные промыслы Закавказского края. Тифлис, 1891.
31. Услар П.К. Военно-статистическое обозрение Российской империи. Эриванская губерния, СПб, 1853, Т. XVI.
32. Никифиров Н.К. Экономический быт государственных крестьян Западной части Нахичеванского уезда Эриванской губернии. // Материалы для экономического быта государственных крестьян Закавказского края. т. I, вып. 5.
33. Сборник сведений о Кавказе. В 9 томах, т. VII. Тифлис, 1880.
34. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002.
35. Кавказский календарь на 1866 год. Отдел III,Тифлис, 1865.

УДК 39

*Н.Р.Джошкунсу*
*Институт Истории им. А.А.Бакиханова НАНА*

## К СПЕЦИФИЧЕСКИМ ОСОБЕННОСТЯМ БЫТА И КУЛЬТУРЫ НАСЕЛЕНИЯ ОРДУБАДА В XIX- НАЧАЛЕ XX ВВ.

*РЕЗЮМЕ*

*Ключевые слова:* Ордубад, Гапыджыг, Билав, Джаннаб, садоводство

Ордубад, имея древнюю историю, богатую культуру и традиции, славится своей флорой и фауной, разнообразием городского быта, богатой кухней, материальной и духовной культурой, а также выдающейся интеллигенцией. Прохождение Великого Шелкового пути, соединявшего страны Дальнего и Ближнего Востока с Европой через Ордубад, оказало большое влияние на его экономическое развитие и сыграло важную роль в признании этого региона на западно-восточном пространстве. Знаменитый памятник Гамигая, который считается «Гобустаном Нахчывана», Хараба-Гилан, Пловдаг, Мунджуглу-тепе и др. археологические памятники являются ценным источником с точки зрения проникновения в древние пласты нашей истории.

Кроме того, Ордубад является этнографическим музеем под открытым небом по своему архитектурному строению, религиозным памятникам, традиционному укладу жизни и культуре его населения. В представленной статье с помощью литературных и полевых этнографических материалов предпринята попытка исследовать этот и другие вопросы, связанные с жизнью ордубадцев в XIX-начале XX вв.

UDC 39

*N.R.Joshkunsu*
*Institute of History named after A.A.Bakikhanov of ANAS*

# ON THE SPECİFİC CHARACTERİSTİCS OF THE HOUSEHOLD AND CULTURE OF THE ORDUBAD POPULATİON AT THE BEGİNNİNG OF THE XIX-XX CENTURİES

*SUMMARY*

*Key words:* Ordubad, Qapijig, Bilev, Jannab, gardening

Ordubad, having an ancient history, rich culture and traditions, is famous for its flora and fauna, diversity of national economy, rich cuisine, material and spiritual culture, as well as outstanding intellectuals. The passage of the Great Silk Road connecting the Far and Middle Eastern countries with Europe through Ordubad had a great impact on its economic development and played an important role in the recognition of this region in the West-East space. The famous Gamigaya monument, which is considered the “Gobustan of Nakhchivan”, Kharaba-Gilan, Plovdag, Munjuglu-tepe and other archaeological monuments are a very valuable source in terms of penetrating the ancient layers of our history.

Along with these, Ordubad is an open-air ethnographic museum in terms of its architectural structure, religious monuments, traditional lifestyle and culture of its population. In this article, based on literature and field-ethnographic materials, investigation of this and other issues related to the life of of Ordubad  people at the beginning of the XIX-XX centuries was highlighted.

***Daxil oldu:17.09.2024-cü il***